

**Azərbaycan Respublikasının Ölkə Əlaqələndirmə Komissiyası**

# Maraqlar Toqquşmasının Qarşısının Alınması Siyasəti və Prosedurları

**İyun 2011**

Bu sənəd Grant Management Solutions layihəsinin texniki yardımı ilə Azərbaycan Respublikası Ölkə Əlaqələndirmə Komissiyası ilə birgə hazırlanmışdır. Texniki yardımın maliyyələşməsi GHS-I-02-07-00006-00 nömrəli müqaviləyə əsasən QİÇS üçün ABŞ Prezidentinin Təcili Planı və USAİD tərəfindən həyata keçirilmişdir.

# Maraqlar Toqquşmasının Qarşısının Alınması Siyasəti və Prosedurları

## 1. Preambula

Azərbaycan Respublikasında Ölkə Əlaqələndirmə Komissiyası (ÖƏK) təsdiq edir ki, ictimai maraqlara cavab verən fəaliyyəti təmin etmək və onun beş təməl funksiyasını yerinə yetirmək məqsədilə Komissiya: a) müxtəlif maraqlı tərəfləri bu prosesə cəlb etməli; b) şəffaflığı, hesabatlılığı və vəhdəti təmin edərək ictimai etimadı artırmalı; c) potensial və ya mövcud olan maraqlar toqquşmasına (MT) münasibətdə həssas və tutduğu vəzifədən sui-istifadə hallarına dözümsüz bir mədəniyyət formalaşdırmalı; habelə d) Qlobal Fond tərəfindən tələb olunarsa, MT-nın qarşısının alınması siyasətini və onunla əlaqəli prosedurları müəyyən etməklə MT-nı aradan qaldırmalıdır. Bundan başqa, ÖƏK xəbərdardır ki, onun tərkibində maraqlar toqquşması hal-hazırda mövcuddur və gələcəkdə də yaranacaqdır.

MT-nın qarşısının alınması siyasəti və onunla əlaqəli prosedurlar potensial və/və ya mövcud olan maraqlar toqquşmasının müəyyən edilməsinə və onların aradan qaldırılmasına yönəlmişdir. Bu siyasət mövcud olan problemli sahələrin dəqiq müəyyən olunmasına və maraqlar toqquşmasının aşkar edilməsinə əsaslanır və maraqlar toqquşmasının idarə edilməsi prosedurlarını özündə əks etdirir. MT-nın qarşısının alınması siyasəti və prosedurlarını hazırlamaqla, hər bir ÖƏK üzvü və əvəzedici üzvü, Katiblik və bütövlükdə ÖƏK mövcud olan maraqlar toqquşmasının aradan qaldırılmasına və şəffaf şəkildə idarə edilməsinə öz töhfəsini verə biləcək.

## 2. Əsas anlayışlar

2.1 ÖƏK daxilində **maraqlar toqquşması** o vaxt yarana bilər ki, ÖƏK üzvünün və ya əvəzedicisinin, yaxud ÖƏK Katibliyinin əməkdaşının şəxsi istək və ya maraqlarını, əlaqəli olduğu müəssisənin maraqlarını, habelə ailə üzvünün və ya yaxın həmkarının maraqlarını təmin etmək məqsədilə vəzifə səlahiyyətlərindən istifadə etmək imkanı vardır, ya da onların hərəkəti ÖƏK-in digər üzvlərinə, qrant alan qurumlara, yaxud geniş ictimaiyyətin mənafeyinə zərbə vurur.

2.2 Maraqlar toqquşması **potensial** və **mövcud olan maraqlar toqquşması** olaraq iki yerə ayrılır. ***Potensial*** **maraqlar toqquşması** bir qayda olaraq o vaxt yarana bilər ki, ÖƏK və ya ÖƏK Katibliyinin üzvü elə bir vəzifədə çalışır ki, onun bu mövqe və ya statusdan, yuxarıda müəyyən edildiyi kimi, maraqlar toqquşmasının yarana biləcəyi bir şəkildə istifadə etmək imkanı vardır. ***Mövcud olan*** **maraqlar toqquşması** isə o deməkdir ki, şəxs, yuxarıda müəyyən edildiyi kimi, ÖƏK və ya onun Katibliyinin üzvü tərəfindən maraqlar toqquşmasının yaradıldığına inanır və ya bundan şübhələnir.

2.3 Hər hansı bir şəxsin **yaxın tərəfdarı** dedikdə ailə üzvü (həyat yoldaşı, övladı, bacı-qardaşı, valideynləri, əmisi, dayısı, bibisi və ya xalası oğlu və ya qızı, həyat yoldaşının valideynləri), dostu, biznes ortağı və ya peşə həmkarı nəzərdə tutulur.

2.4 Hər hansı bir şəxs istənilən **müəssisə** ilə o zaman əlaqəli hesab olunur ki, o həmin müəssisədə ştat işçisi və ya könüllü əməkdaş olaraq işləyir, habelə burada maliyyə marağı vardır, yaxud da texniki və ya rəhbər funksiya daşıyır.

2.5 **İştirakdan imtina** o halda baş verir ki, şəxs müzakirələrin aparılmasına və qərarların qəbulu prosesinə (məsələn, səsverməyə) qatıldığı zaman maraqlar toqquşması yarana biləcəyi təqdirdə öz iştirakını geri çəkmiş olsun.

2.6 Maraqlar toqquşması **hədiyyələrlə** də bağlı yarana bilər; bu, **qulluq, bəxşiş və ya sponsorluq** da daxil olmaqla, istər pul şəklində, istərsə də qeyri-maddi şəkildə, müxtəlif formalarda təzahür edə bilər.

2.7 **ÖƏK orqanı** dedikdə ÖƏK-in yaratdığı istənilən təşkilat və ya idarəetmə strukturları, o cümlədən komitələr, altkomitələr, işçi qrupları və ÖƏK Katibliyi başa düşülür.

2.8 Maraqlar toqquşması aşağıdakı proseslər zamanı yarana bilər, lakin bunlarla məhdudlaşmır:

- Əsas Resipiyentlərin və sub-resipiyentlərin seçilməsi
- Əsas Resipiyentlərin və sub-resipiyentlərin qiymətləndirilməsi, monitorinqi və nəzarətdə saxlanılması ilə bağlı məsələlər
- Qrantın növbəti fazasının uzadılması ərizəsi
- Qrant fondlarının yenidən əhəmiyyətli dərəcədə proqramlaşdırılması
- ÖƏK üzvlərinin və ya onların müəssisələrinin maliyyə marağının olduğu təchizat, podrat, kadrların seçilməsi və s. kimi məsələlərlə bağlı müzakirələr

## 3. Maraqlar Toqquşmasının İdarə Edilməsi və Qarşısının Alınması Prosedurları

### 3.1 MT-nın Qarşısının Alınması Siyasəti və Prosedurlarının Tətbiqi

3.1.1 ÖƏK Katibliyi maraqlar toqquşması ilə əlaqədar məsələləri sənədləşdirir və arxivləşdirir.

3.1.2 ÖƏK-in İdarəetmə Heyəti ÖƏK strukturu daxilində bir orqandır və MT ilə əlaqədar məsələlərinin həll edilməsi ona həvalə olunmuşdur (məsələn, üzvlər arasında məqsədyönlü şəkildə MT-nın məxfi saxlanması).

3.1.3 Lazım gəldikdə və tələb olunduqda, MT ilə əlaqədar səciyyəvi məsələlərin həll edilməsi üçün MT-nın qarşısının alınması üzrə xüsusi komitələr təsis ediləcək.

### 3.2 Hüquqi Bəyanat və Onun Arxivləşdirilməsi

3.2.1 Bütün ÖƏK üzvləri və əvəzediciləri ÖƏK-də üzv olduqları müddətdə MT-nın Qarşısının Alınması Siyasəti və Prosedurlarının və Maraqların Mövcudluğunun (Qoşma 1) qəbul edilməsi barədə bəyanatı doldurmalı və həmin vaxt ərzində ona məlum olan istənilən

potensial və ya mövcud olan maraqlar toqquşmasını müəyyənləşdirməlidir. Bəyanat verildiyi tarixdən etibarən hər il təkrar verilməli və informasiya sistemində hər hansı material dəyişikliyi baş verdiyi zaman ehtiyac olarsa yenilənməlidir. Bəyanatlar Katiblik tərəfindən yoxlanılacaq və arxivləşdiriləcək. Həmin bəyanatlar ictimai xarakterli ÖƏK sənədlərinin bir hissəsini təşkil edəcəkdir.

### 3.3 Maraqlar Toqquşmasının Qarşısının Alınması Siyasəti və Prosedurları Barədə Maarifləndirmə

3.3.1 ÖƏK Katibliyi ÖƏK üzvlərinin və əvəzedicilərinin üzv olduqları zaman və hər ilin birinci kvartalında keçiriləcək ÖƏK iclasında MT-nın qarşısının alınması siyasəti və prosedurları barədə maarifləndirilmələrinin həyata keçirilməsini və maraqlar toqquşmasının idarə edilməsi ilə bağlı onların öz vəzifələri ilə tanış olmalarını təmin edəcəkdir.

### 3.4 Əsas Resipiyentlər və Sub-Resipiyentlər

3.4.1 Əsas resipiyent və ya sub-resipiyent olan müəssisələri təmsil edən ÖƏK üzvləri öz şəxsi qrantlarına nəzarəti həyata keçirməyəcək və ya Nəzarət Komitəsinə xidmət etməyəcəklər. Lakin onlar Nəzarət Komitəsinin keçirdiyi iclaslar zamanı öz qrantları haqqında aparılan müzakirələrdə iştirak edə və lazım gəldikdə, səs vermə hüququna malik olmayan iştirakçı qismində bu qrantlar haqqında məlumatlar verə bilərlər.

3.4.2 Əsas resipiyentliyə, sub-resipiyentliyə və ya sub-sub-resipiyentliyə namizəd olan müəssisələri təmsil edən ÖƏK üzvləri əsas resipiyentlərın, sub-resipiyentlərın və sub-sub-resipiyentlərın seçilməsi prosesi zamanı iştirakdan imtina edəcəklər. Bura həm müzakirələr, həm də səsvermə daxil edilməlidir. İştirakdan tam imtina (o cümlədən, vacib məsələlərə dair müzakirələr zamanı iclas zalını tərk etmə) təmin edir ki, maraqları toqquşan şəxs müzakirələrin və səsvermənin gedişatına birbaşa təsir göstərməsin və bütün ÖƏK üzvləri öz fikirlərini sərbəst ifadə edə bilsinlər.

### 3.5 ÖƏK iclaslarının keçirilməsi

3.5.1 Hər bir ÖƏK üzvünə və üzvün əvəzedicisinə ən azı bir həftə qabaqcadan iclasın gündəliyi ilə tanış olmaq imkanı veriləcək. ÖƏK-in üzvləri (və ya onların əvəzediciləri) potensial maraqlar toqquşmasının mövcud olub-olmadığını müəyyənləşdirməli və ÖƏK-in müzakirələrində və səsverməsində iştirak etməkdən imtina etməyə özlərini hazırlamalıdırlar. Həmin üzvlər bu cür maraqların xarakterini sədrə izah etməlidirlər.

3.5.2 ÖƏK üzvləri və ya onların əvəzediciləri ÖƏK iclasının əvvəlində gündəliyə daxil edilmiş bütün məsələlər oxunduqdan və gözdən keçirildikdən sonra maraqlar toqquşmasının mövcud olub-olmadığını bildirməlidirlər.

3.5.3 ÖƏK təsdiq edir ki, MT-nın aradan qaldırılması üzrə nümunəvi təcrübə istər müzakirələr zamanı, istərsə də səsvermə zamanı maraqları toqquşan üzvlərin öz iştiraklarından tam şəkildə imtina etmələrini tələb edir. Ona görə də maraqları toqquşan ÖƏK üzvü 3.6 – "İşirakdan imtina" bölməsində göstərildiyi kimi mübahisəli məsələlərlə əlaqədar keçirilən bütün müzakirələrdə və səsvermədə iştirakdan imtina etməlidirlər. İstisna hallarda, ÖƏK mübahisəli məsələlərlə əlaqədar səsvermə keçirilən zaman ÖƏK üzvünün iclas zalında qalmasına imkan yaratmaq üçün gizli səsvermənin keçirilməsi barədə qərar qəbul edə

bilər. Bununla belə, həmin üzvə qeyd olunan məsələyə dair səs vermək hüququ verilməyəcək.

3.5.4 ÖƏK-in istənilən üzvü və ya onun əvəzedicisi iclasın keçirilməsindən əvvəl və ya keçirilməsi zamanı potensial maraqlar toqquşması probleminin mövcudluğu barədə məsələ qaldıra bilər. Üzvlər MT-nın Qarşısının Alınması Siyasətinin və Prosedurlarının həyata keçirilməsi tapşırılmış və hər qaldırılmış məsələnin təhqiqatını aparacaq ÖƏK-in İdarəetmə Heyətinə maraqlar toqquşması barədə bəyanat təqdim edə bilərlər.

### 3.6 İştirakdan imtina

3.6.1 İclas zamanı gündəlikdə duran məsələlərin müzakirəsi və səsverməsi ilə bağlı maraqlar toqquşması mövcud olduğu təqdirdə, ÖƏK üzvü və ya onun əvəzedicisi həmin iclasda iştirak etməkdən imtina edərək iclas zalını tərk edəcək və başqa bir yerdə gözləyəcəkdir. Maraqları toqquşan ÖƏK üzvləri və onların əvəzediciləri müzakirə olunan məsələ ilə bağlı səs verməməli və səsvermə keçirilən zaman iclas zalında olmamalıdırlar. Lazımi səsvermə və ya qərar qəbul etmə prosesi başa çatdıqdan sonra ÖƏK üzvü və ya onun əvəzedicisi iclas zalına geri çağırılacaqdır.

3.6.2 Səsvermə zamanı maraqları toqquşan ÖƏK üzvləri və ya onların əvəzediciləri ÖƏK üzvləri üçün lazım olan məlumatı təqdim etməkdən ötrü təmsil etdikləri müəssisənin nümayəndələri qismində iclas zalına dəvət oluna bilərlər. Bu məlumatların təqdim edilməsi başa çatdıqdan sonra onlar təkrar geri çağırılana qədər yenidən iclas zalını tərk edəcəklər.

3.6.3 İstər iclas zalında olsun, istərsə də iclas zalından kənarda istənilən zaman ÖƏK üzvləri və ya onların əvəzediciləri səsverməyə qoyulmuş məsələ ilə bağlı səs verəcək hər hansı bir şəxsə şəxsi təsir göstərməyə çalışmayacaqlar.

3.6.4 Əgər barəsində qərar qəbul ediləcək məsələ ilə bağlı şəxsin maraqları toqquşursa və həmin şəxs qeyd olunan məsələnin müzakirəsində və bu məsələ ilə bağlı müvafiq qərarın qəbul edilməsində iştirak etməkdən imtina etmirsə, ÖƏK-in İdarə Heyəti həmin şəxsin proseslərdə iştirakına etimadsızlıq göstərilməsi barədə qərar qəbul edə bilər.

3.6.5 Əgər iclasa sədrlik vəzifəsini həyata keçirən şəxsin özünün maraqları toqquşursa, həmin şəxs müzakirə müddəti ərzində iclasa sədrlik vəzifəsini sədr müavininə həvalə etməli, özü isə bu iclasda iştirakdan imtina etməlidir. Əgər sədr müavininin də maraqları toqquşarsa, sədr müavini də eyni qaydada iclasda iştirakdan imtina etməli və bu halda ÖƏK müzakirə müddəti ərzində sədr vəzifəsini müvəqqəti icra edən şəxsi seçməli və bütün bu proses əvvəldən-axıra qədər izlənərək protokollaşdırılmalıdır.

### 3.7 Hədiyyələrə dair

3.7.1 Əgər ÖƏK üzvünə və ya onun əvəzedicisinə bağışlanan hədiyyənin onun vəzifəsi ilə bağlı olduğunu düşünməyə kifayət qədər əsas varsa və bu cür hədiyyələr ÖƏK qərarlarına əhəmiyyətli dərəcədə təsir göstərə bilərsə, həmin ÖƏK üzvünə və ya onun əvəzedicisinə bu cür hədiyyələr qəbul etmək qadağan edilir.

3.7.2 Əgər ÖƏK üzvlərinin və ya onların əvəzedicilərinin verdikləri hədiyyənin ÖƏK siyasətinə, əsas resipiyentə və ya onun maliyyələşdirdiyi hər hansı bir proqrama təsir etmək üçün nəzərdə tutulduğunu düşünməyə kifayət qədər əsas varsa, həmin ÖƏK üzvlərinə və ya onların əvəzedicilərinə bu cür hədiyyələr bağışlamaq qadağan edilir.

**3.8 Şübhəli maraqlar toqquşmasının məruzə edilməsi**

3.8.1 Əgər istənilən tərəf şübhəli maraqlar toqquşması barədə məruzə edirsə, ÖƏK sədri və ÖƏK-in İdarə Heyəti ÖƏK üzvünün və ya onun əvəzedicisinin bu məsələdə marağının olduğunu bəyan edib-etmədiyini və bu pozuntuya görə onun məsuliyyət daşıyıb-daşımadığını müəyyən etmək üçün dərhal məsələni araşdıracaq. Məsələ bütün ÖƏK üzvlərinə məruzə edilməlidir. Mahiyyəti üzrə istənilən məsələlər qərar verilməsi üçün ÖƏK-in ümumi iclasında qaldırılmalıdır.

3.8.2 Əgər məsələ müzakirə olunması üçün ÖƏK-in iclasında qaldırılarsa, həmin məsələ müzakirə olunduğu müddət ərzində ÖƏK üzvündən və ya onun əvəzedicisindən bu müzakirəyə qatılmaqdan imtina etmək xahiş olunur. İstənilən ÖƏK üzvü və ya onun əvəzedicisi maraqlar toqquşması barədə ÖƏK qarşısında iddia qaldıra bilər və belə iddialar müzakirə olunmalıdır.

**3.9 Öz marağını açıqlamama**

3.9.1 Əgər ÖƏK xəbərdar olarsa ki, ÖƏK üzvü və ya onun əvəzedicisi bu və ya digər məsələdə marağı olduğunu bilərəkdən açıqlamayıb, ÖƏK əldə olunmuş hər hansı faydanı geri götürmək üçün əsaslı tədbirlər görəcəkdir. Belə bir addımı atmazdan öncə, ÖƏK üzvünü və ya onun əvəzedicisini maraqlar toqquşması ilə bağlı ortaya çıxmış məsələ haqqında yazılı surətdə məlumatlandıracaq və üzvə və ya onun əvəzedicisinə öz marağını gizlətməsi barədə ittihamlara cavab vermək imkanı yaradacaq.

3.9.2 ÖƏK sədri, sədr müavini və ya ÖƏK üzvü maraqlar toqquşması ilə bağlı əldə edilən bütün məlumatları maraqlar toqquşmasının qarşısının alınması tapşırılmış ÖƏK-in İdarə heyətinə yönəldəcək. İdarə Heyəti maraqlar toqquşmasının mövcud olub-olmadığı haqda qərar qəbul edəcək. Əgər maraqlar toqquşması həqiqətən mövcuddursa, İdarə Heyəti maraqlarının toqquşduğunu bəyan etməmiş şəxs barəsində müvafiq tədbir görülməsi üçün qərar qəbul edəcək.

3.9.3 Qərar və tövsiyənin qəbulundan sonra tam tərkibli ÖƏK ilk iclasda Şuranın tövsiyəsini nəzərdən keçirəcək və səsverməyə qoyacaq.

3.9.4 Tövsiyə ÖƏK tərəfindən səsverməyə qoyulduqdan sonra, ÖƏK üzvünün və ya onun əvəzedicisinin öz marağını açıqlamadığı iddia olunan məlumatlar üzvün təsil etdiyi quruma bildiriləcək və ÖƏK-də fəaliyyət göstərən belə bir üzvü və ya onun əvəzedicisini dərhal başqası ilə əvəz etmək sorğusu ilə üzvün təmsil etdiyi quruma müraciət olunacaq.

3.9.5 Müəyyən hallarda maraqlar toqquşmasının açıqlanmaması ilə bağlı məsələlərin və bundan irəli gələn digər məsələlərin həlli üçün müvəqqəti komissiya yaradılmasına ehtiyac duyula bilər

3.9.6 ÖƏK cari qanunların açıq-aşkar pozulduğu maraqlar toqquşması hallarını hüquqi qaydaların tətbiqinə məsul olan müvafiq rəsmi dövlət orqanına məruzə edəcək.

**3.10 Maraqlar toqquşmasının sənədləşdirilməsi**

3.10.1 Maraqlar toqquşması ilə bağlı bütün qərarlar ÖƏK Katibliyi tərəfindən qeydə alınacaq və iclasın protokollarında öz əksini tapacaq. Qeydiyyatda göstərilməlidir: toqquşmanın

xarakteri və dərəcəsi; müzakirənin icmalı; və maraqlar toqquşmasının aradan qaldırılması üçün görülmüş tədbirlər.

**3.11 MT-nın Qarşısının Alınması Siyasəti və Prosedurlarının vaxtaşırı nəzərdən keçirilməsi**

3.11.1 MT-nın Qarşısının Alınması Siyasəti və Prosedurları vaxtaşırı, yaxud ÖƏK-in digər sənədləri nəzərdən keçirməsinə uyğun bir şəkildə, və ya lazım gəldikdə vaxtından əvvəl nəzərdən keçiriləcək.

## Qoşma 1: MT-nın Qarşısının Alınması Siyasəti və Prosedurlarının Qəbul Edilməsi və Maraqlar Toqquşması Hallarının Mövcudluğu haqda Bəyanat

***Azərbaycanda Ölkə Əlaqələndirmə Komissiyasına üzv təyin olunduqdan sonra, zəhmət olmasa bu Bəyanatı doldurun və ÖƏK-in birinci iclasında iştirakınızdan əvvəl ÖƏK-in Katibliyinə təqdim edin. Səlahiyyət müddətiniz dövründə sizdən bu Bəyanatı hər il yeniləməyiniz xahiş olunacaq.***

**Bölmə 1: MT-nın Qarşısının Alınması Siyasətinin və Prosedurlarının qəbul edilməsi**

***ÖƏK üzvünün /əvəzedicisinin adı: …..…………………………………………..***
***Müəssisə: ……………………………..........................................................................***
***Vəzifə: …………………………………...................................................................***
***Sektor: ………………………………...........................................................***

Mən, aşağıda imzalayan şəxs, əlavə edilmiş Azərbaycanda ÖƏK-in Maraqlar Toqquşmasının Qarşısının Alınması Siyasətini qəbul edirəm.

ÖƏK üzvü və ya əvəzedici üzvü olaraq, mənimlə bağlı maraqlar toqquşması mövcud olduğu halda, müzakirələrdə, tövsiyələrin və ya qərarların qəbul edilməsində, yaxud potensial maraqlar toqquşmasının yarana biləcəyi digər proseslərdə, əlavə edilmiş Maraqlar Toqquşmasının Qarşısının Alınması Siyasətində müəyyən edildiyi kimi, iştirak etməyəcəyəm.

Mən bu sənədin peşəkar və şəxsi mənsubiyyətimə dair 2-ci Bölməsini dolduracağam. Mən müvafiq məsələlərin nəzərdən keçiriləcəyi istənilən ÖƏK iclasından əvvəl və ya onun açılışında maraqlarımın toqquşması barədə məlumat verəcəyimə təminat verirəm. Mən maraqlar toqquşmasının xarakterini və maraqlarıma aid olan bütün müvafiq məlumatları bəyan edəcəyəm. Bundan sonra, mən həmin məsələ ilə bağlı keçiriləcək iclas və müzakirələrdə iştirak etməkdən könüllü surətdə imtina edəcəyəm.

Əgər digər bir şəxs mənimlə bağlı maraqlar toqquşması halının mövcudluğunu iddia edərsə, mən bu ittihama cavab verəcək və ÖƏK-in bununla bağlı çıxaracağı qərarla razılaşacağam.

Əgər ÖƏK-də vəzifə tutan şəxsin vəzifə və öhdəliklərindən irəli gələn hər hansı məsələ ilə bağlı maraqlar toqquşması halının mövcudluğu ilə bağlı düşünməyə mənim kifayət qədər əsasım varsa,

mən bu mülahizəmi və onu əsaslandıran məlumatları sədrə məruzə edəcək və sədrin bu zəmində məndən tələb edəcəyi əlavə məlumatları ona təqdim edəcəyəm. Mən maraqlar toqquşması barədə əsaslı dəlillərim olmadan bəyanat verməyəcəyimi öz öhdəmə götürürəm, çünki bu, ÖƏK-in şəffaflığına, hesabatlılığına və ya ona göstərilən ictimai etimada xələl gətirə bilər.

Əgər mənim Maraqlar Toqquşmasının Qarşısının Alınması Siyasəti ilə əlaqədar hər hansı bir sualım yaranarsa və ya ona riayət etməkdə hər hansı bir yardıma ehtiyacım olarsa, bu məqsədlə ÖƏK Katibliyi ilə əlaqə saxlayacağam.

Mən bununla, ÖƏK-in Maraqlar Toqquşmasının Qarşısının Alınması Siyasətinin və Prosedurlarının bir nüsxəsini təhvil aldığımı və oxuduğumu təsdiq edirəm.

İmza………………………..……………………………………………………………

Tarix:………………………….……………………………………………………………

## Bölmə 2: Maraqlar Toqquşması Halının Mövcudluğu haqda Bəyanat

***Zəhmət olmasa, aşağıdakı suallara tam cavab verin, sonra isə inisialınızı yazmaqla təsdiqləyin.***

| № | Sual | Cavab |
|---|---|---|
| 1a. | Harada işləyirsiniz? | |
| 1b. | Hansı vəzifəni tutursunuz? | |
| 2. | Siz və ya yaxın ailə üzvünüz hər hansı bir təşkilatın Direktorlar Şurasının üzvüsünüzmü? Əgər belədirsə, zəhmət olmasa təşkilat(lar)ı siyahıya daxil edin. | |
| 3. | Siz və ya yaxın ailə üzvünüz sahibkar, ortaq, yaxud özəl müəssisə səhmdarıdırmı? Əgər belədirsə, zəhmət olmasa siyahıya daxil edin. | |
| 4. | Sizin yuxarıda siyahıya salınan əlaqəli olduğunuz təşkilatlardan hər hansı biri Qlobal Fond qrantının əsas resipiyenti və ya sub-resipiyentidirmi? Əgər belədirsə, zəhmət olmasa təşkilatı və qrantı siyahıya daxil edin. | |
| 5. | Yaxın ailə üzvünüz Qlobal Fond qrantının əsas və ya sub-resipiyenti olan təşkilatda işləyirmi, yaxud bu təşkilatda hər hansı paya sahibdirmi və ya xidmət göstərirmi?<br>Əgər belədirsə, zəhmət olmasa şəxsi, təşkilatı və xəstəlik proqramını siyahıya daxil edin. | |
| 6. | Siz ÖƏK-in komitələrində fəaliyyət göstərirsinizmi? Əgər belədirsə, zəhmət olmasa siyahıya daxil edin və komissiyada rəhbər rolunuzun (sədr, həmsədr və s.) olub-olmadığını göstərin. | |
| 7. | İşlədiyiniz təşkilatın missiyası və ya siyasətləri milli xəstəlik strategiyası ilə toqquşurmu və ya belə bir toqquşma ehtimalı varmı? Əgər belədirsə, hansı xəstəlik üçün və necə? | |

| | | |
|---|---|---|
| 8. | Zəhmət olmasa, sizin üçün maraqlar toqquşmasına səbəb ola biləcək istənilən digər təşkilatı və ya situasiyanı siyahıya daxil edin. | |

**Təsdiqlədi: …………………..........**